# UNEC-də “dəyirmi masa”: “Azərbaycanda multikulturalizm və sosial-iqtisadi inkişaf”

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Azərbaycanda multikulturalizm və sosial-iqtisadi inkişaf" mövzusunda "dəyirmi masa" keçirilib. Tədbirə UNEC-in professor-müəllim heyəti, universitetdə təhsil alan əcnəbi tələbələrlə yanaşı, ölkəmizin elm və təhsil müəssisələrinin nümayəndələri də qatılıb.

UNEC-in Kommersiya fakültəsinin təşkilatçılığı ilə keçirilən "dəyirmi masa"da fakültə dekanı Mirağa Əhmədov bildirib ki, Prezident İlham Əliyevin 2016-cı ilin "Multikulturalizm ili" elan olunması haqqında imzaladığı sərəncamdan sonra ölkəmizdə bu mövzuya maraq və diqqət daha da artıb. Qeyd edib ki, sərəncamdan irəli gələn tapşırıqlarla bağlı UNEC-də real addımlar atılmaqdadır. Belə ki, universitetdə bütün ixtisaslar üzrə tədris planlarına "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənni daxil edilərək, tələbə və magistrantlara tədris olunur.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) şöbə müdiri Hikmət Babayev multikulturalizmin dövlət siyasətinin əsas sahəsi olduğunu vurğulayıb. Qeyd edib ki, 1995-ci ildə ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanan Azərbaycan Konstitusiyası ölkəmizdə yaşayan bütün insanlar və xalqlar üçün bərabər həyat, fərqli sivilizasiya, dini baxışlara malik insanların birgə yaşayışını təmin etmək məqsədi ilə formalaşdırılan milli ideologiyanın normativ-hüquqi və qanunvericilik bazasını yaratdı. Bu gün Azərbaycanda dinindən, irqindən, milliyyətindən, dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqları müdafiə olunur, etnik qrupların mədəni dəyərləri qorunur və inkişaf etdirilir. H.Babayev bildirib ki, BBMM-in nizamnaməsindən irəli gələn məqsədlərdən biri də Azərbaycan multikulturalizminin tədqiqidir.

Bakı Slavyan Universitetinin Multikulturalizm kafedrasının müdiri Ülviyyə Abbasova hazırda 13 xarici və 28 yerli universitetdə "Azərbaycan multikulturalizmi", "Multikulturalizmə giriş" fənninin tədris olunduğunu diqqətə çatdırıb. Qeyd edib ki, kifayət qədər güclü akademik potensiala malik olan UNEC multikulturalizmin iqtisadi-elmi əsaslarının formalaşdırılmasında yardımçı ola bilər.

Sonra UNEC alimləri multikulturalizm siyasətinin regionlarda və beynəlxalq aləmdə daha geniş yayılması üçün təkliflərlə çıxış ediblər.

İqtisadiyyatın tənzimlənməsi kafedrasının müdiri, professor Məhiş Əhmədov ölkəmizdə multikultural dəyərlərin uğurla həyata keçirilməsinə imkan verən başlıca şərt və maddi əsasın sosial-iqtisadi inkişafla bağlı olduğunu bildirib. M.Əhmədov Azərbaycanda iqtisadi inkişafın humanitar aspektlərini gücləndirmək, multikultural dəyərlərin maddi əsaslarını genişləndirmək üçün iqtisadçıların bu istiqamətdə tədqiqatlarını dərinləşdirməsini və şaxələndirməsini diqqətə çatdırıb. Professor bu baxımdan yaxın gələcək üçün ölkəmizin iqtisadi inkişaf strategiyasında iqtisadi, sosial, demoqrafik, mənəvi, humanitar, birgə yaşayış, həmrəylik problemlərinin vəhdət halında həllinin nəzərə alınmasını təklif edib.

"Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi" kafedrasının müdiri professor Ə.Əlirzayev bildirib ki, iqtisadi və sosial inkişafın amili və onun nəticəsi olaraq, multikulturalizmin inkişafı resurs potensialından asılıdır. Dövlətin gəlirləri, xüsusi fondlar və əhalinin sosial-iqtisadi imkanları multikulturalizmin inkişafına tələbatı artırır. Multikulturalizmin sosial rolu və iqtisadi imkanları, hüquqi, təşkilati baza ilə təkmilləşir. Ə.Əlirzayev multikulturalizm haqqında Azərbaycan Respublikasının çərçivə qanununun olmasını təklif edib. Bildirib ki, onun obyektiv predmeti və institusional sistemi qanunla tənzimlənməlidir. Sosial-iqtisadi inkişaf amillərinin idarə edilməsi multikulturalizm səmərəsi baxımından prioritet istiqamətlərdir. Təhsil, səhiyyə, sosial ədalət və iş yerlərinin inkişafı əhalinin maddi rifahında ədalətli prinsiplərin təşkili, sosial siyasətin aparıcı həlqəsidir.

Tədbirdə milli azlıqların kompakt yaşadığı iqtisadi rayonların davamlı sosial-iqtisadi inkişaf məqsədi ilə "Azərbaycanda multikulturalizm və sosial-iqtisadi inkişaf" mövzusunda tədqiqatların aparılmasının və UNEC-in təcrübəli iqtisadçı-ekspertlərinin bu işə cəlb olunmasının əhəmiyyəti vurğulanlıb.

"Dəyirmi masa" müzakirələrlə davam edib.